## ELMAN İSRAFİLOĞLU

### Axtarıram

Dərdi seçdim özümə yar,
Dərd, qəm doğra, köksümü yar.
Həyatın rəngsiz üzü var,
Dözümə rəng axtarıram.

Baxıram sevən gözlərə,
Mavi gözlü dənizlərə.
Baxıb boyalı üzlərə,
Üzümə rəng axtarıram.

Gözümə sıxıb göyləri,
Gözümə yığıb göyləri,
Sənsiz qarğıyıb göyləri,
Özümə rəng axtarıram.

Söz deyirəm düşür yerə,
Ta, baxan yoxdur sözlərə.
Çıxıb gedirəm göylərə,
Sözümə rəng axtarıram.

### Zibil yeşikləri

İş otağım…
Masamın üstündə kompüter,
baxırıq bir-birimizə.
Sonra
yazırıq,
danışırıq…
Yemək kimi
artıq qalan,
Sözlərimi,
misralarımı,
atıram zibil yeşiyinə,

İnsan da var
zibil kimidir.
Dayanıb həyatın zibilliyində,
amma
onu zibil yeşiyinə atan yoxdur,-
zibil maşını gəlir…